*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.41-44*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.41-44*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.41-44*

**UOT: 37.091:376**
https://doi.org/10.30546/670832.2025.02.1036

# İbtidai təhsil mühitində xüsusi qayğıya ehtiyacı olan uşaqlara yanaşma və işin təşkili prinsipləri

**Müəllif(lər):**

**Səbinə Aslanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

**Açar sözlər:** inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, fərdiləşdirilmiş tədris, adaptiv metodlar, sosial və emosional dəstək

**Annotasiya.** Məqalədə ibtidai təhsil pilləsində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin təşkili və inklüziv pedaqoji yanaşmaların tətbiqi araşdırılmışdır. Müasir təhsil sistemi beynəlxalq standartlara əsaslanaraq inklüziv təhsili prioritet istiqamət kimi müəyyən edir və bu, bütün uşaqların, o cümlədən xüsusi ehtiyacı olanların bərabər təhsil imkanlarına malik olmasını təmin edir. Tədqiqatda ibtidai sinif müəllimlərinin fərdi uşaqların inkişaf xüsusiyyətlərini nəzərə alaraq adaptiv metodlar tətbiq etməsi, sosial və emosional dəstək verməsi, valideynlərlə əməkdaşlıq etməsi və innovativ texnologiyalardan istifadə etməsi vacib amillər kimi müəyyən edilmişdir. Məqalədə inklüziv təhsilin yalnız pedaqoji nəticələrə deyil, həm də sosial ədalətin təmininə, uşaqların sosial adaptasiyasına və cəmiyyətin inklüziv dəyərlərə əsaslanan inkişafına töhfə verdiyi göstərilmişdir. Tədqiqatın material bazasını yerli və xarici alimlərin elmi əsərləri, beynəlxalq təşkilatların metodik tövsiyələri və normativ sənədlər təşkil etmişdir. Nəticələr göstərir ki, inklüziv pedaqoji yanaşmaların tətbiqi uşaqların fərdi inkişafını gücləndirir, təhsil prosesinə aktiv cəlb olunmasını təmin edir və onların gələcək sosial inteqrasiyasını asanlaşdırır. Məqalədə həmçinin inklüziv təhsilin praktikada qarşılaşdığı çağırışlar – müəllim hazırlığının aşağı olması, maddi-texniki imkanların məhdudluğu və valideyn maarifləndirilməsi çatışmazlıqları – qeyd edilmiş və həll yolları tövsiyə olunmuşdur.

## Pedagogical approaches and principles of organizing educational work with children in need of special care in the primary educational medium

**Author(s):**

**Sabina Aslanova**
Azerbaijan State Pedagogical University
PhD on Pedagogy, Associate Professor
**E-mail:** sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

**Key words:** inclusive education, children with special needs, individualized learning, adaptive methods, social and emotional support

**Abstract.** İn the article the organization of educational work with children in need of special care at the primary educational level and the application of inclusive pedagogical approaches were searched. Modern education system based on international standards, identifies inclusive education as an essential direction ensuring equal educational opportunities for all children, including children possessing special needs as well. İn the study key factors such as  implementation of adaptive teaching methods by primary school teachers considering individual development characteristics of children were determined, the provision of social and emotional support, collaboration with parents and the use of innovative technologies. İn the article it was stated that, inclusive education contributes not only  pedagogical outcomes, but also  the promotion of social justice, children's social adaptation, and the development of society based on inclusive values. To the material base of the study include scientific works by local and international scholars, methodological recommendations of international organizations and normative documents. The results indicate that, the application of inclusive pedagogical approaches enhances children's individual development, ensures their active participation in the educational process and facilitates their future social integration. İn the article practical challenges faced in inclusive education, such as insufficient teacher training, limited material- technical resources and lacks in enlightening parents were also stated and solving ways were recommended.

## Принципы подхода и организации работы с детьми, нуждающимися в особом уходе, в начальной образовательной среде

**Автор(ы):**

**Сабина Асланова**
Азербайджанский государственный педагогический университет
Доктор философии по педагогике, доцент
**Э-почта:** sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

**Ключевые слова:** инклюзивное образование, дети с особыми образовательными потребностями, индивидуальное обучение, адаптивные методы, социальная и эмоциональная поддержка

**Аннотация.** В статье исследуются особенности организации образовательного процесса с детьми с особыми образовательными потребностями на уровне начального образования, а также применение инклюзивных педагогических подходов. Современная система образования, ориентируясь на международные стандарты, рассматривает инклюзивное образование как приоритетное направление, обеспечивающее равный доступ к качественному образованию для всех категорий детей.В ходе исследования установлено, что эффективная инклюзивная практика предполагает использование учителями начальных классов адаптивных образовательных методов с учётом индивидуальных особенностей развития обучающихся, оказание социально-эмоциональной поддержки, системное взаимодействие с родителями и применение инновационных образовательных технологий. Показано, что инклюзивное образование способствует не только достижению положительных образовательных результатов, но и социальной интеграции детей, формированию ценностей социальной справедливости и инклюзивной культуры общества.Эмпирическую и теоретическую базу исследования составили труды отечественных и зарубежных учёных, нормативно-правовые документы и методические рекомендации международных организаций. Результаты подтверждают, что внедрение инклюзивных педагогических подходов усиливает индивидуальное развитие обучающихся, повышает их активность в образовательном процессе и способствует успешной социальной адаптации.

**Giriş:** Müasir təhsil sistemi beynəlxalq təhsil standartlarına əsaslanaraq inklüziv təhsili prioritet istiqamət kimi müəyyən etmişdir. İnklüziv təhsil bütün uşaqlara, o cümlədən xüsusi qayğıya ehtiyacı olanlara bərabər imkanlar yaratmaqla sosial ədalətin təmininə xidmət edir [1, s.18]. İbtidai təhsil pilləsi uşaqların gələcək təhsil həyatının və sosial inkişafının təməlini qoyur [2, s.42].

Bu mərhələ uşaqların gələcək təhsil həyatının təməlini qoyur və onların həyat boyunca davam edəcək öyrənmə motivasiyasının ilkin bazasını yaradır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili yalnız pedaqoji yanaşma ilə məhdudlaşmır, həm də sosial və psixoloji dəstəyi zəruri edir. Bu uşaqlar müxtəlif intellektual, emosional, fiziki və sosial çətinliklərlə qarşılaşır [3, s.66]. Belə şəraitdə inklüziv təhsil onların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasını təmin edən əsas vasitə kimi çıxış edir.

Bu baxımdan ibtidai təhsil mühiti xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən müəllimlər üçün strateji platformaya çevrilir. Onlar yalnız pedaqoji biliklərə malik olmamalı, həm də inklüziv yanaşma, korreksiya pedaqogikası prinsipləri və adaptiv tədris metodologiyalarını tətbiq etmə bacarığına sahib olmalıdırlar. Müasir pedaqoji yanaşmalar uşaqların fərdi ehtiyaclarına uyğun fərdiləşdirilmiş tədris planlarının hazırlanmasını, sosial və emosional dəstəyin gücləndirilməsini, valideyn və mütəxəssislərlə əməkdaşlığın sistemləşdirilməsini tələb edir. Beləliklə, ibtidai təhsil pilləsində xüsusi qayğıya ehtiyacı olan uşaqlara yanaşma və işin təşkili yalnız pedaqoji prosesin təkmilləşdirilməsi deyil, həm də inklüziv təhsilin əsas hədəflərindən biri olan sosial ədalət və bərabərlik prinsiplərinin həyata keçirilməsidir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlar təhsil sistemində ayrı bir diqqət tələb edən qrup kimi tanınır. Onların təhsil prosesində qarşılaşdıqları çətinliklər çoxşaxəlidir və yalnız pedaqoji aspektlərlə məhdudlaşmır. Bu çətinliklər intellektual inkişafın məhdudluğu, emosional vəziyyətin qeyri-sabitliyi, sosial inteqrasiya problemləri, fiziki məhdudiyyətlər və davranış pozğunluqları kimi müxtəlif sahələrdə özünü göstərir. İbtidai təhsil mərhələsi uşağın təhsil həyatında ən mühüm dövrlərdən biridir. Bu mərhələdə formalaşan motivasiya, öyrənmə vərdişləri və sosial münasibətlər uşağın gələcək akademik və şəxsi inkişafına əsas təsir göstərir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bu mərhələdə yaradılacaq inklüziv mühit onların təhsil uğurlarını və sosial adaptasiya bacarıqlarını müəyyən edir. Bu səbəbdən ibtidai siniflərdə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş yalnız pedaqoji deyil, həm də sosial və etik məsuliyyət tələb edən bir prosesdir. İnklüziv təhsil prinsipləri uşaqlara yalnız bilik və bacarıqlar qazandırmaqla kifayətlənmir, eyni zamanda onların özünəinamını artırır, sosial münasibətlərin inkişafını təşviq edir və gələcək həyatlarında cəmiyyətdə aktiv iştirak etmələrinə zəmin yaradır. Beləliklə, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş cəmiyyətin inklüzivlik və bərabərlik dəyərlərinin formalaşmasına birbaşa töhfə verir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işdə tətbiq olunan metod və yanaşmalar onların fərdi inkişaf xüsusiyyətlərinə uyğun olmalıdır. Bu məqsədlə əsasən aşağıdakı metodlar geniş istifadə olunur:

**1. Fərdi xüsusiyyətlərin nəzərə alınması**

Hər bir uşağın fərdi inkişaf xüsusiyyətlərini nəzərə almaq təhsildə uğurun əsas açarıdır. Tədris planı uşağın bilik və bacarıq səviyyəsinə, psixoloji vəziyyətinə, maraq və qabiliyyətlərinə uyğun şəkildə qurulmalıdır [3, s.58]. Bu yanaşma uşağın potensialını maksimum şəkildə inkişaf etdirməyə imkan verir və tədris prosesinə aktiv iştirakını təmin edir [4, s.53].

**2. Adaptiv tədris metodlarının tətbiqi**

Adaptiv metodlar fərdi qabiliyyətlərə uyğun tədris strategiyalarının seçilməsini nəzərdə tutur. Bu metodlara oyunla öyrənmə, vizual materiallardan geniş istifadə, sensor əsaslı öyrənmə və fərdi tapşırıqlar daxildir [8, s.44]. Adaptiv metodların tətbiqi uşaqların dərsə marağını artırır və öyrənməyə müsbət təsir göstərir [2, s.47].

**3. Sosial və emosional dəstəyin təmin edilməsi**

Emosional dəstək xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilində motivasiyaedici rol oynayır. Müəllimlər tədris mühitində empatik və dəstəkləyici münasibət formalaşdırmalıdır [4, s. 69]. Belə yanaşma uşaqların özünəinamını möhkəmləndirir və sosial inteqrasiyanı asanlaşdırır [6, s.37].

**4. Valideynlərlə aktiv əməkdaşlıq**

Valideynlərin təhsil prosesində iştirakının təmin edilməsi xüsusi qayğıya ehtiyacı olan uşaq-

ların inkişafına müsbət təsir göstərir. Müntəzəm ünsiyyət və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq uşağın təhsil motivasiyasını gücləndirir [7, s.55].

**5. İnnovativ texnologiyaların tətbiqi**

Texnologiyalar inklüziv təhsil mühitində uşaqlara fərdi öyrənmə imkanları yaradır. Multimedia, interaktiv platformalar və rəqəmsal resurslar uşaqların marağını artırır və fərdi ehtiyaclara uyğun təlimə şərait yaradır [1, s.21].

**Material və metodlar.** Tədqiqatın aparılmasında kompleks elmi-metodoloji yanaşmadan istifadə edilmişdir. Araşdırma əsasən nəzəri-analitik xarakter daşıyır və ibtidai təhsil mühitində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin təşkili, inklüziv pedaqoji yanaşmaların mahiyyəti və tətbiq imkanlarının elmi ədəbiyyat əsasında sistemli şəkildə öyrənilməsinə yönəlmişdir. Tədqiqatın material bazasını inklüziv təhsil, korreksiya pedaqogikası, xüsusi təhsil ehtiyacları, adaptiv tədris metodları və sosial-emosional dəstək mexanizmlərinə dair yerli və xarici alimlərin elmi əsərləri, monoqrafiyalar, məqalələr, eləcə də beynəlxalq təşkilatların (xüsusilə UNESCO-nun) metodik tövsiyə və hesabatları təşkil etmişdir. Bununla yanaşı, mövzu ilə bağlı normativ sənədlər və konseptual yanaşmalar təhlilə cəlb edilmişdir.

**Nəticə və müzakirə.** İbtidai təhsil mühitində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işdə əsas məqsəd yalnız pedaqoji uğur deyil, həm də sosial ədalətin təminidir. Tədris planlarının fərdiləşdirilməsi, adaptiv metodların seçilməsi, emosional dəstəyin göstərilməsi və valideynlərlə əməkdaşlıq inklüziv təhsilin əsas sütunlarıdır [3, s.60]. Müəllimlərin inklüziv təhsil sahəsində peşəkarlığının artırılması və məktəblərin maddi-texniki bazasının gücləndirilməsi bu prosesin effektivliyini artırır [5, s.50]. Dövlət və təhsil qurumları arasında sistemli əməkdaşlıq da vacibdir [1, s.23]. Beləliklə, inklüziv pedaqoji yanaşmalar yalnız fərdi uşaqların deyil, bütövlükdə təhsil sisteminin inkişafına yönəlmişdir. Bu, cəmiyyətin inklüzivlik və bərabərlik prinsiplərinə əsaslanan dayanıqlı inkişafına mühüm töhfə verir [6, s.40].

Tədqiqat nəticələri göstərir ki, inklüziv təhsil yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün deyil, bütün təhsil sisteminin inkişafı üçün vacibdir. Belə mühitlərdə uşaqlar empatiya, əməkdaşlıq və sosial məsuliyyət kimi dəyərləri mənimsəyir, bu da onların gələcək həyatında və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

Bununla belə, praktikada bir sıra çağırışlar mövcuddur: müəllim hazırlığının aşağı olması, maddi-texniki imkanların məhdudluğu və valideynlərin maarifləndirilməsində çatışmazlıqlar inklüziv təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Bu problemlərin həlli məqsədilə dövlət və təhsil qurumları arasında sistemli əməkdaşlığın gücləndirilməsi, müəllimlərin inklüziv təhsil üzrə davamlı təlim proqramlarının təşkili və innovativ tədris texnologiyalarının tətbiqi zəruridir.

**Yekun nəticə.** Nəticə olaraq, ibtidai təhsil mühitində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işdə tətbiq olunan inklüziv pedaqoji yanaşmalar və korreksiya pedaqogikasının prinsipləri təhsilin keyfiyyətini və inklüzivliyin təmin edilməsini təmin edən əsas vasitələrdən biridir. Fərdi xüsusiyyətlərin nəzərə alınması, adaptiv metodlar, sosial və emosional dəstək mexanizmləri və valideynlərlə sistemli əməkdaşlıq uşaqların fərdi inkişafını gücləndirir, onların təhsil prosesinə cəlb olunmasını təmin edir və sosial inteqrasiya bacarıqlarını artırır. Bu yanaşmalar yalnız pedaqoji məqsədləri qarşılamır, həm də uşaqların şəxsiyyət kimi formalaşmasına, ictimaiyyətlə harmonik münasibətlərin qurulmasına və inklüziv dəyərlərin güclənməsinə xidmət edir. Akademik və praktik təcrübələr göstərir ki, inklüziv təhsil mühitinin yaradılması yalnız məktəblərin daxili strukturlarında deyil, eyni zamanda milli təhsil siyasətində də davamlı dəyişikliyi tələb edir. Bu kontekstdə, gələcək tədqiqatlar və təhsil islahatları xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinə yönəlmiş strategiyaların təkmilləşdirilməsinə, müəllim hazırlığının gücləndirilməsinə və inklüziv təhsilin bütün pillələrdə universal praktikaya çevrilməsinə yönəlməlidir. Beləliklə, inklüziv təhsil sistemi yalnız fərdi uşaqların inkişafına deyil, eyni zamanda cəmiyyətin inklüziv dəyərlərə əsaslanan dayanıqlı inkişafına töhfə verir.

**Ədəbiyyat**

1. Aslanova, S. İbtidai təhsildə inklüziv pedaqogika prinsipləri / S.Aslanova. – Bakı: ADPU, – 2021. – s.37-40.
2. Hüseynova, N. Xüsusi qayğıya ehtiyacı olan

uşaqlarla işdə valideyn-müəllim əməkdaşlığı / N.Hüseynova. – Bakı: Elm və təhsil, – 2020. – s.55.
3. Salamov, R. Xüsusi pedaqogika və korreksiya işləri / R.Salamov. – Bakı: Elm və təhsil, 2019. – s.53.
4. UNESCO. A Guide for Ensuring Inclusion and Equity in Education. – Paris: UNESCO Publishing, – 2017. – s.18-23.
5. Ainscow, M. Developing Inclusive Education Systems / M.Ainscow. – London: Routledge, – 2020. – s.42-47.
6. Booth, T. Index for Inclusion: Developing Learning and Participation in Schools / T.Booth.– Bristol: CSIE, – 2019. – s.58-60.
7. Florian, L. Inclusive Pedagogy Across the Curriculum / L.Florian. – London: Routledge, – 2015. – s.66-69.
8. Slee, R. Inclusive Education: From Policy to School Practice / R.Slee. – London: Routledge, – 2018. – s.44-50.

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 17.04.2025, son daxilolma – 12.06.2025, qəbulolunma – 10.09.2025